# Məni Ağbaba həsrəti iflic eləmişdi...

## *Dövlət başçımızın "Biz o yerlərə qayıdacağıq" qətiyyəti isə qol-qanadımı açır*



*"Ağbaba" ansamblı 35 il əvvəl*

**Neçə illərdir o yerləri yuxuda görür, aşkarda arzulayırdım. O həsrətlə, intizarla düşünməkdən iflic olmuşdum, yeriyə bilmirdim. On illər boyu yaşadığım Bakı ölkəmizin paytaxtı, dövlətimizin siyasi mərkəzi olsa da, Ağbaba həsrəti, Güllübulaq intizarı bir an belə məni tərk etmədi və edə bilməzdi. Hətta ailə məclislərində, dost-tanış arasında da dəfələrlə demişdim ki, biz o yerlərə qayıdacağıq. Hiss edirdim ki, Qərbi azərbaycanlıların böyük əksəriyyəti həmin qayıdışa inanırdı. Ancaq qabağa kim düşsün, yolları necə açaq, babalarımızın ocağı, atalarımızın məzarı olan o yerlərə necə gedə bilək?**

Mən Qərbi Azərbaycanın Amasiya rayonunun Güllübulaq kəndində doğulub böyümüşəm. Orada yaşadığım illərdə Ağbaba – Şörəel mahalının tanınmış müğənnisi, "Ağbaba" ansamblının yaradıcısı, məşhur "Ağbaba" mahnısının musiqisinin müəllifi və ilk ifaçısı olmuşam.

Hələ kəndimizdə olarkən – 1980-ci ilin əvvəlində belə bir ansambl yaratmaq qərarına gəlmişdim. Ansamblımız rayonda ilk belə musiqi kollektivi idi. Musiqiçilərimiz gitara, qarmon, klarnet, nağara, qoşa nağara, zurna, tütək kimi musiqi alətlərini məharətlə ifa edirdilər. Repertuarımızı əsasən xalq mahnıları təşkil edirdi. Sonralar türk mahnılarına və biz tərəflərdə ənənəvi olan "nanaylar"a da yer vermişdik.

Tez bir zamanda Amasiyadan kənarda da tanındıq. Ermənilər bizi çox qısqanır, tez-tez hədələyirdilər. Buna baxmayaraq, biz ansamblı saxlaya bildik. Rayonumuzun, demək olar ki, bütün kəndlərində konsert proqramı ilə çıxış etmişik. Ermənilərin təzyiqinə baxmayaraq, fəaliyyətimizi 1988-ci ilədək davam etdirdik.

Əlbəttə, el-oba həsrəti heç zaman məni tərk etmir. Yurdumuza, Amasiyamıza, Güllübulağımıza qayıtmaq mənim 35 illik arzumdur. Qeyd etdiyim kimi, həmişə inanmışam ki, belə bir zaman gələcək, elimizdə yenə də toy-bayram olacaq!

Prezident İlham Əliyevin ötən il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə səsləndirdiyi fikirlər, nümayiş etdirdiyi qətiyyət isə tək mənim yox, bütün Qərbi azərbaycanlıların ümidini birə-beş artırdı: "Əminəm ki, gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Biz də əminik, cənab Prezident! Bəli, böyük coşqu və həvəslə öz doğma torpaqlarımıza qayıdaraq orada yaşayacağıq. Allah Sizi və dövlətimizi qorusun! Daim Sizi dəstəkləyəcəyik.

**Mehman QASIMOV,**
**Amasiya rayonunun Güllübulaq kəndinin sakini**

Xalq qəzeti .- 2023.- 25 yanvar.- S.7.